# Əsas məqsəd lokal marketinq ilə qlobal marketinqin inteqrasiyasını yaratmaqdır



Dekabrın 22-də Bakıda Azərbaycan Cümhuriyyətinin 100-cü ildönümünə həsr edilmiş "Əsrə Bərabər Gün" adlı "Marketinq Sammiti 2018" keçirilib. Şirkətin təşkilat komitəsinin sədri Əyyub Qarabağlı ölkəmizdə təşkil olunan marketinq, biznes tədbirləri sırasında öz dəst-xətti ilə seçilən və xüsusi auditoriyası olan "Marketinq Sammiti" layihəsinin xüsusi maraq doğurduğunu deyib. Bildirib ki, layihənin həyata keçirilməsində əsas məqsəd lokal marketinq ilə qlobal marketinqin inteqrasiyası və dövlətin Strateji Yol Xəritəsində vurğulanan marketinq, menecment, insan kapitalının inkişafı siyasətinə özəl sektorun dəstəyinin nələrdən ibarət olmasının qarşılıqlı müzakirə edilməsidir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti vəzifəsini icra edən Yusif Abdullayev deyib ki, bugünkü tədbirdə aparılan müzakirələr, fikir mübadiləsi zamanı yeni ideyalar yaranacaq və bu da növbəti illərdə marketinq sahəsində yeni trendlərin yaranmasına dəstək olacaq. Azərbaycanda Marketinq Sammitinin ikinci dəfə keçirilməsi təqdirəlayiqdir.

Layihəsinin təşkilatçısı Azərbaycanda marketinq, marketinq kommunikasiyaları, bazar araşdırmaları kimi xidmətlər təqdim edən Comunical şirkətinin rəhbəri Tural Abbaslı sammitin biznesin inkişafına istiqamətlənmiş qlobal tədbir olacağını vurğulayıb və qeyd edib ki, builki sammit regionun 3 dost ölkəsini Azərbaycanda cəmləşdirir. Sammit qarşıdakı illərdə Azərbaycanın biznes mühitində markalanma, brend siyasəti, marketinq kommunikasiyaları istiqamətində yerli sahibkarlarımızla sinerji effektinə nail olaraq milli iqtisadiyyatımızın inkişafına töhfə verəcək.

Destinasiya marketinqi, elektron ticarət, logistika, dijital marketinq və brendinq... Bakıda başlayan 2-ci Beynəlxalq “Marketinq Sammiti”ndə qlobal marketinqin müasir trend mövzuları müzakirə olunur. Əsas məqsəd Azərbaycanın kiçik və orta sahibkarlığına, biznes mühitinə dəstək olmaqla milli iqtisadiyyatın inkişafına töhfə verməkdir.

Tədbirdə qeyd olunub ki, son illərdə ölkəmizdə iqtisadiyyatın inkişafı, rəqabətqabiliyyətli sahibkarlıq subyektlərinin yaradılması istiqamətində dövlət və özəl qurumlar tərəfindən bir çox layihələr həyata keçirilib. Xüsusilə marketinq, bazar araşdırmaları və marketinq kommunikasiyaları istiqamətində daha güclü struktura malik olmaq əsas şərtlərdən birinə çevrilib. Əsas məqsədlərdən biri də lokal marketinq ilə qlobal marketinqin inteqrasiyasıdır.

Tədbir zamanı Azərbaycan, Gürcüstan və Türkiyədən olan spikerlər destinasiya marketinqi, elektron ticarət, logistika, dijital marketinq və brendinq kimi vacib mövzularla bağlı fikirlərini bölüşüblər.

Qeyd edək ki, Xəzəryanı və MDB ölkələri, Avropa və Azərbaycan, türkdilli ölkələrin marketinq sammitinin keçirilməsi cari ilin mart ayında təşkilat komitəsinin iclası əsasında təsdiq edilib və sammitin strateji fəaliyyət istiqaməti kimi qəbul olunub.